**Leyla GƏRAYZADƏ**
*Filologiya üzrə elmlər doktoru*
Bakı Dövlət Universiteti

# ÇİNGİZ AYTMATOVUN YARADICILIĞINDA ÜMUMBƏŞƏRİ PROBLEMLƏR

*Ey insanlar, Allah sizləri*
*qeyri-insani bəlalardan qorusun!*
**(Çingiz Aytmatov)**

Hər bir xalqın sevincini, kədərini, dərdini, kimliyini, ümumilikdə milli özgürlüyünü öz əsərlərində bədiiləşdirən, əbədiləşdirən, milli mənliyini yaşadan və yaddaşlara, nəsillərə ötürən, dövlət və dövlətçiliyin müdafiəsində duran dəyərli sənətkarlar mövcuddur. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev deyirdi: "Azərbaycan dövlətçiliyinin müvəffəqiyyətli quruculuğunun, onun möhkəmləndirilməsi və çiçəklənməsinin əsasını intellektual sərvətimiz – bədii ədəbiyyatımız, incəsənətimiz və mədəniyyətimiz təşkil edir" [1, s. 264]. Belə sənətkarlar öz xalqının içərisindən çıxıb onun varlığını əks etdirən dəyərli, əbədiyaşar bir xəzinə – ədəbi irs olan əsərlər yazmaqla yanaşı, həm də öz xalqlarının timsalında bütövlükdə bəşəri – hər bir insan üçün örnək ola biləcək məsələlərə toxunurlar. Buna görə də əksər yazıçıların əsərləri ümumbəşəri mahiyyət kəsb etmiş olur. Məsələn, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Hüseyn Cavid və s. kimi Azərbaycan şairləri əsərlərində milli sərhədləri qorumaqla bərabər, bu sərhədləri aşaraq yazılarında bəşəri problemləri qaldırmış və onun həlli yollarını axtarmağa çalışmışlar. Məhz görkəmli qırğız yazıçısı Çingiz Aytmatov da belə yazıçılardandır. Onun da yaradıcılığı bütövlükdə ümumbəşəri əhəmiyyətə malikdir. Başqa sözlə, Çingiz Aytmatovun yaradıcılığı dərin milli xüsusiyyətlərə malik olduğu kimi, həm də ümumbəşəri mahiyyət və məzmun ifadə edir. Onun dünya ədəbiyyatında böyük hadisə sayılan əsərləri realizmin tükənməz bədii və idraki gücünü nümayiş etdirir. Ç.Aytmatov üçün ədəbiyyatda yeganə böyük mövzu – insan mövzusudur. Burada akademik Nərgiz Paşayevanın insan və bütövlükdə ədəbiyyatda humanizmlə bağlı fikirləri yada düşür: "Humanist ədəbiyyatın mahiyyəti, onun məzmunu bütün dövrlərdə insanların, xalqın taleyi ilə əlaqəli olmuşdur. Və biz 20-ci əsrin görkəmli sənətkarları haqqında danışarkən, ilk növbədə, onu anlamağa cəhd edirik ki, xalq, şəxsiyyət və millət faktoru ilə əlaqəlidir" [2, s.4]. Göründüyü kimi, biz bu fikirləri Çingiz Aytmatovun yaradıcılığına da aid edirik. Həqiqətən də, bu yazıçının əsərlərindəki humanizm onun öz xalqının taleyi ilə birbaşa bağlıdır. Lakin bəşəri ideyalar da danılmazdır. Yəni yazıçı əksər əsərlərini rus dilində yazmasına baxmayaraq, onun bütün obrazları psixologiyası və təbiəti etibarilə, təpədən dırnağa qədər qırğızdır. Çünki yazıçının əsərlərində ümumdünya problemləri qırğız həyatından və qırğız təbiətindən keçib ümumiləşir. İlgiz Aytmatovun da qeyd etdiyi kimi, "dahi adamların həyatı və yaradıcılığı həmişə onların ölkələrinin və xalqlarının maraqları ilə bağlı olmuşdur. Yazıçı, mütəfəkkir və insanpərvər kimi Çingiz Aytmatovun da yaradıcılıq və ictimai fəaliyyəti böyük yer məkanını, ümumbəşəri taleləri və maraqları, Yer üzərində insan həyatının fəlsəfi problemlərini əhatə edir. Eyni zamanda, onun povest və romanları bizim sadə adamların həyatı, onların könül sevgisi, məişətdəki çətin və dramatik hadisələr, müasir mürəkkəb dünyada həyat yollarının axtarışları barədə olan hekayələrdir. Bəşər həyatının təbiətlə, cəmiyyətin inkişaf tarixi ilə, sivilizasiyaların təşəkkülü və insanlar arasında münasibətlərlə ümumi əlaqəsi – Çingiz Aytmatovun əsərlərində bütün bu məsələlər öz əksini tapmışdır" [3].

Qeyd edək ki, keçmiş SSRİ-nin tərkibinə müttəfiq respublikalar kimi daxil olmuş Şərq xalqlarının nümayəndələri keçən əsrin son onilliklərində çoxəsrlik yaddaşsızlıqdan, nəhayət ki, ayılıb bir-birinin mədəniyyəti və ədəbiyyatına diqqət yetirdilər. Çoxəsrlik yadırğama ona gətirib çıxarmışdır ki, yeni dərketmə doğma türk dili yox, daha çox postsovet məkanında millətlərarası ünsiyyət dilinə çevrilmiş rus dili vasitəsi ilə baş verirdi. Məsələ ondadır ki, keçmiş Sovet İttifaqının türkdilli respublikalarında, indiki müstəqil dövlətlərdə – Azərbaycanda, Qazaxıstanda, Qırğızıstanda, Türkmənistanda və Özbəkistanda rus dilində yazan yazıçı və şairlər hər zaman bütün varlıqları ilə özlərini təsdiq etməyə çalışmışlar. Müşahidələr göstərir ki, məhz onlar ardıcıl olaraq etnik yaddaşın uydurma yox, əsl daşıyıcısı

olmuş və hazırda da bu vəzifəni yerinə yetirənlər var. Bu yazıçıların əsərləri indi də dildə-ağızda gəzir, oxucu marağına səbəb olur; bu səbəbdən də naşir və redaktorlar onların əsərlərini həvəslə çap edirlər.

Ümumiyyətlə, vurğulanmalıdır ki, rusdilli yazıçıların yaradıcılığının formalaşdığı dil situasiyasının fenomenallığı təsdiq edir ki, bu yazıçılar iki mədəniyyət arasında özünəməxsus ötürücü funksiya yerinə yetirirlər: hər iki dili bilən yazıçılar digər mədəniyyətlərin daşıyıcıları və resipientlərinə öz mədəniyyətindən fərqli, mühüm əhəmiyyət kəsb edən başqa bir mədəniyyəti çatdırırlar.

Doğrudur, Azərbaycan və Orta Asiya Şərqi müsəlman mədəniyyətinə mənsub regionlardır. Amma bu ərazilərdə yalnız İslam dininə qulluq edən insanlar yaşamır. Bununla yanaşı, məişətə, söz sənətinə, mifologiya və folklora, həyatın fəlsəfi dərkinə, insanlar arasındakı münasibətə nüfuz edən dini ənənələr, bütövlükdə insan və insana münasibət – insanpərvərlik bu və ya digər şəkildə, aşkar, yaxud dolayısı ilə Şərq üslubunu formalaşdırır. Belə üslubu formalaşdıran rusdilli yazıçıların, o cümlədən də Çingiz Aytmatovun fəlsəfi-psixoloji nəsri təkcə gündəlik, ötəri və keçici problemləri həll etməyi qarşısına məqsəd qoymur. Bu yazıçıların əsərlərində qoyduğu və qaldırdığı problemlər keçici olmayan, ekzistensial, yəni ümumbəşəri məsələləri əhatə edən problemlərdir. Digər mədəniyyətlərlə qovuşuq kontekstdə (yazı dilinə münasibətdə) onlar bir toplumun özgürlüklərini başqa bir topluma ötürürlər. Həm də bu məsələlər bəşəri səciyyə daşıdığı və humanistik məna kəsb etdiyindən, oxucu üçün də cəlbedici olur. Bu deyilənləri biz Çingiz Aytmatovun yaradıcılığında daha aydın görürük. Məsələn, onun "Gün var əsrə bərabər" adlı romanında verilmiş bu parçada ümumbəşəri məna kəsb edən məsələlər belə ifadə olunur: "Bu dünyada nə əcaib iş desən, olar! İndi kim bilsin ki, bunların hansı düzdür, hansı yalan. Bu gen dünyanın sirlərinin hamısını insan necə bilə bilər?" [4, s.36]. Və ya "Belə də adam olar! – deyə Yedigey ürəyində söyürdü. – Onlara ölümdən başqa hər şey vacibdir!" Bu məsələ ona rahatlıq vermirdi. "Əgər ölümün onlar üçün heç bir əhəmiyyəti yoxdursa, deməli, həyatın da qədir-qiyməti yoxdur. Onda nə məqsədlə yaşayırlar, niyə yaşayırlar?" [4, s.44-45].

Çingiz Aytmatovun toxunduğu ümumbəşəri məsələlərə xeyirlə şərin mübarizəsi, həyatın mənasının dərk olunması, əxlaqi prinsiplərin müəyyənləşdirilməsi və b. mövzular da daxildir. Onun "Çingizxanın bəyaz səması" və nisbətən sonralar yazdığı "Kassandranın möhürü" əsərlərində təbiəti əzəli mənada anlama və dərketmə, eləcə də ondan insanların mənafeyi baxımından istifadə olunması ilə bağlı mülahizələr irəli sürülmüşdür. Əgər hər iki əsəri, həm də ümumbəşəri bir problem olan uşaq doğumu probleminin əks etdirilməsi baxımından müqayisə etsək, bu əsərlər arasında sıx bağlılığın mövcudluğunu cəsarətlə söyləmək olar. Doğrudur, "Kassandranın möhürü" romanında bu problem çoxsaylı rəhbər işçilərin, "xüsusi" adamların maraqlarını üzə çıxardığı halda, "Çingizxanın bəyaz səması" əsərində isə bir nəfərin marağı əks olunur: o adamın ki, fatehlik qüdrətinə insanlar indi də "heyran" qalır; öz gündəlik adi işləri ilə məşğul olan böyük bir dövlətin adamları bilmirlər ki, sabah onları nə gözləyir. Partiya və dövlətin ideoloqları, onlar üçün hansı "yeniliklər"i hazırlayır. Bu ideoloqların əksəriyyətinin proqramlaşdırılmamış hərəkətləri böyük bir kütlənin "düzülüş xətti" ilə müqayisə edilə bilməz. "Kassandranın möhürü" romanında elə insanların "təbəqələr"ə bölünməsi də süni olaraq qarşıya qoyulmuş məxsusi adamların, indiki meyarlarla yanaşsaq, kolonların "yetişdirilməsi"nə səbəb olur.

Yazıçı bu cür qeyri-adi olan bəşəri bir problemə, heç də elmi-tədqiqat məqsədi ilə deyil, mənəvi-etik maraqlar baxımından müraciət etmişdir. Kosmosa rahat qalaktika axtarışı məqsədi ilə uçan keçmiş alim-kosmonavt rahib Filofey beynəlxalq kosmik stansiyanı tərk etmək və Lesnaya Qruda siqnal ötürmələri ilə ətraf mühitə zərbə vuran və bununla da Yaradanın işinə kobud şəkildə müdaxilə edənlərə qarşı özünəməxsus şəkildə etirazlarını bildirən paritet kosmonavtların ("Əsrə bərabər gün" əsərində) birbaşa davamçısıdır. Daha doğrusu, əgər Ç.Aytmatov 80-ci illərin əvvəllərində paritet kosmonavtlar haqqında roman yazmış və ilk olaraq insanın, hər kəsdən öncə sovet adamının təbiətə hücumuna qarşı özünəməxsus şəkildə etirazını bildirmişdisə, keçən əsrin 90-cı illərinin sonlarında SSRİ-nin artıq keçmiş vətəndaşı olaraq bu etirazı daha ciddi və kəskin şəkildə "Kassandra damğası" romanında bildirmişdir [ətraflı bax: 5].

Əsərdə rahib Filofey məxsusi adamları "istehsal" edən şəxslərdən biri olması üçün bütün enerjisini və biliyini sərf edən iblis cinsindəndir. Bütün iblislər kimi o da həm xeyir, həm də şərin daşıyıcı-

sıdır, başqa sözlə o, fəlakətin dönməzliyini tamamilə başa düşdüyündən, hazırlanan fırıldağın qarşısını özü alır. Qəribəsi odur ki, Apokalipsis mövzunun yer aldığı digər əsərlərindən fərqli olaraq müəllif bu əsərində açıq şəkildə təmkinlik və nəzakətlilik nümayiş etdirmədən qəhrəmanının dili ilə danışır. Bu, heç də onunla əlaqədar deyildir ki, "Kassandra damğası" romanı, belə demək mümkünsə, söz azadlığı dövründə onun başı üzərində ideoloji qılıncın dayanmadığı bir zamanda yazılıb. Düşünürük ki, Ç.Aytmatova elə gəlmişdir ki, həqiqəti başqa cür ortaya qoymaq mümkün deyildir. Əsərin ilk baxışdan qapalı görünən, özünə inamı olmayan qəhrəmanı rahib Filofey özünü tribun kimi təqdim edir: onun dediyi hər bir sözdən insan mənəvi böhran keçirir, bir anın içərisində gücünü itirir. Romanın qəhrəmanı əmindir ki, bəşəriyyət özü-özünə labüd ölüm hazırlamışdır. Kim də olmasa, bu dəhşətli eksperimentin müəlliflərindən biri kimi o, sınaqda iştirak edənlərə bu barədə açıq məlumat verməyi özünə borc bilir.

"Kassandra damğası" romanının təbiətin və bütövlükdə insanlığın müdafiəçisi kimi çıxış edən digər qəhrəmanı Robert Borkun nəzərincə, kainatdakı varlıqların sərbəstliyi sərhəd tanımır və bu azad varlıqların, məsələn, kitlərin qrup şəklində sahilə çıxıb intihar etməsini heç nə ilə müqayisə etmək mümkün deyil. Kitlərin özlərinə qəsd etməsi bu heyvanların və bütövlükdə təbiəti qorumağın bioloji qanunlarına cavab verməməsi o fikri təsdiq edir ki, insanlar ətraf mühiti məhv etməklə öz həyatlarını da təhlükə altına qoyurlar. Buradan da belə bir nəticəyə gəlmək olur ki, müasir insan təbiətin qəddar düşməninə çevrildiyi üçün, bu əzablara dözməyən təbiət zəlzələlər, tufanlar, fırtınalar törətməklə insanlardan qisas alır.

Ç.Aytmatov Bork obrazında Kalistratov ("Ölüm kötüyü"), Abutalb ("Əsrə bərabər gün"), Adsız uşaq ("Ağ gəmi") və b. obrazların timsalında Göylə Yer arasındakı müqəddəs bağlılığı göstərmişdir; digər tərəfdən məhz Borkun təfsirləri cəmiyyətin diqqətini Filofeyin kəşflərinə yönəldir. Nə etməli – sualı ona rahatlıq vermir. O bilir ki, Kassandra embrionları haqqında açıq danışmaqla bəşəriyyəti agah etmək nə qədər təhlükəlidir.

Yəqin ki, Ç.Aytmatov Rahib Filofeyin kəşflərini hər kəsdən ağrılı qəbul edən futuroloq Bork obrazını təsadüfi yaratmamışdır. Kosmik rahibin kəşflərinin hücumunu futuroloq Bork kimilərin belə





qəbul etməməsi faktı bəşəriyyətin mövcudluğunu ortodoksal şəkildə qəbul edən, məkrli niyyətlərlə birbaşa əlaqəsi olanlar haqqında nə isə söyləməyə imkan vermir.

Maraqlısı odur ki, Ç.Aytmatov rahib Filofeyin kəşflərinin bəşəriyyətə təsirini əks etdirmək üçün, hətta fərdin bətn dövrü inkişafı ilə əlaqəli bütün kənar müdaxilələrə qadağa qoyan dini də ehtiva etməklə, Robert Borku çox ciddi sınaqlardan keçirir. İnsanların yer üzündəki vəzifələrini fərqli dəyərləndirən müxtəlif dinləri qınayaraq, həqiqətin bir olduğunu, hər şeyin Yaradanın əlində olduğunu, hər şeyi olduğu kimi qəbul etməyin zəruriliyini ortaya qoyaraq hər kəsə seçim imkanı verir: ruhuna uyğun gələni seçə bilərsən.

Rahib Filofeyin kəşflərinin Bork tərəfindən tam dərk olunduğunu təsəvvür etmək çətindir. Amma bu kəşflər skeptik Entoni Yungeri belə, bütün işlərini atıb kosmik rahibin nəzəriyyəsi ilə ciddi şəkildə məşğul olmağa sövq edir. Borkun simasında həmsöhbətini, bəlkə də, mövcud situasiyanı dərk edən yeganə şəxsi tapan Yunger rahib Filofeyin kəşflərindən narahatlıq keçirən və silahlanmaya qarşı açıq şəkildə nifrətini bildirən, güman ki, post-sovet ədəbiyyatında ilk obraz idi.

Filofeyin obrazının konturları o mənada daha genişlənir, ümumbəşərilik qazanır ki, Ç.Aytmatov onu cəmiyyətdə özlərini təsdiq edə bilməyən adamların əks cəbhəsində verir. Filofeyin insanların fəlakətlər qarşısında dayanması ilə barışa bilməməsi onu artıq adama çevirir. Filofey o səbəbdən artıq adama çevrilir ki, insanları üzləşdiyi bəlalardan xilas edə bilmir.

Deyilənləri ümumiləşdirərək, aşağıdakı nəticələri qeyd edə bilərik:

Çingiz Aytmatovun yazdığı əsərlərdən aydın görünür ki, o öz xalqının milli özgürlüklərini yüksək səviyyədə mənimsəmiş və məhz bu xüsusiyyətlərinə görə də onun əsərlərində qoyulan məsələlər bəşəri problemlərin həllinə istiqamətlənmişdir.

Yazıçının əsərlərində mənəvi problemlər, dinin insan mənəviyyatına təsiri, insanların ümumi mədəniyyəti ilə bağlı qoyulmuş məsələlər açıqlanır.

Çingiz Aytmatovun yaradıcılığı dərin milli xüsusiyyətlərə malik olduğu kimi, həm də ümumbəşəri mahiyyət və məzmun ifadə edir.

## ƏDƏBİYYAT

1. Асадуллаев С.Г. Гейдар Алиев и литературный процесс. Баку, «Нурлан», 2005.
2. Пашаева Н.А. Человек-образ-литература. Баку, «Мутарджим», 2003.
3. Aytmatov İ. Yazıçı Çingiz Aytmatovun yaradıcılığı və cəmiyyət həyatında müasir ideoloji problemlər. http://olaylar.az/news/medeniyyet/42321
4. Aytmatov Ç. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2009.
5. Айтматов Ч.Т. Тавро Кассандры. Москва, «Молодая гвардия», 2003.

**Leyla Garayzadeh**

## PROBLEMS COMMON TO ALL MANKIND IN CHINGIZ AITMATOV'S CREATIVITY

### SUMMARY

The article analyzes religious and environmental problems in the work of the outstanding Kyrgyz writer Chingiz Aitmatov. He advocates preservation of the environment, rare species of animals and plants and thrifty attitude to the planet Earth. While solving the most acute problems of our time, author turns to religion in order to keep all the best in life for future generations, as these problems are global and common to all mankind.

**Лейла Герайзаде**

## ОБЩЕЧЕЛОВЕЧЕСКИЕ ПРОБЛЕМЫ В ТВОРЧЕСТВЕ ЧИНГИЗА АЙТМАТОВА

### РЕЗЮМЕ

В статье анализируются религиозные и экологические проблемы в творчестве выдающегося киргизского писателя Чингиза Айтматова. Он ратует за сохранение окружающей среды, редких видов животных и растений и бережливое отношение к планете Земля. Для решения острейших проблем современности писатель обращается к религии с целью отстоять все лучшее в жизни для будущих поколений, ибо эти проблемы являются глобальными и общечеловеческими.